2019.-S.16.

# Səs

Son səhifə 28 noyabr

# YAP Binəqədi rayon təşkilatının kollektivi və gənc fəalları Səməd Vurğunun Ev-Muzeyində olublar

***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, kollektivi və gənc fəalları Səməd Vurğunun Ev-Muzeyini ziyarət ediblər. Burada ziyarət iştirakçılarına muzey haqqında ətraflı məlumat verilib.***



Bildirilib ki, dahi Azərbaycan şairi, görkəmli dramaturq, alim, ictimai xadim, iki dəfə Dövlət mükafatı laureatı Səməd Vurğunun Ev-Muzeyi Azərbaycanda yazıçı və bəstəkarların xatirəsini əbədiləşdirmək üçün 1975-ci ildə açılışı olmuş ilk memorial muzeydir. Muzey XIX əsrdə inşa edilmiş yaşayış binasının 3-cü mərtəbəsində 6 otaqlı mənzildə yerləşir. Səməd Vurğun ömrünün son iki ilini bu evdə yaşamış, gərgin yaradıcılıq və ictimai fəaliyyətlə məşğul olmuşdur. Ötən müddətdə şairin yaradıcılığı xeyli araşdırılmış və muzeyin fondu xeyli zənginləşdirilmişdir. Ev Muzeyində 3 otaq Səməd Vurğunun qonaq, yataq və iş otaqları, mebelləri və əşyaları ilə birgə olduğu kimi saxlanılır. Digər 3 otaqda isə şairin yaradıcılığına və ictimai fəaliyyətinə, oğulları Yusif və Vaqif Səmədoğlulara məxsus eksponatlarla əhatə olunur. Muzeydə şairin vaxtilə dahi bəstəkarlarımız Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev və Səid Rüstəmovun ölməz əsərlərini ifa etdiyi royalı, əlyazmaları, yazı masası, skripkası və bir sıra qiymətli eksponatlar saxlanılır. Həmçinin, ev-muzeyinin qorunub-saxlanması istiqamətində göstərilən dövlət qayğısından bəhs edildi. Vurğulandı ki, burada ildə iki dəfə şairin xatirə günləri keçirilir, bir çox ictimai xadimlər, ədəbiyyat nümayəndələri və şairsevərlər iştirak edir.




Ziyarət iştirakçılarda xoş təəssüratlarla yadda qalıb.

**ZÜMRÜD BAYRAMOVA**